DOI: https://www.doi.org/10.36719/2663-4619/67/34-39

**Qərənfil Zeyqəm qızı Rzayeva**
ADPU Ağcabədi filialı
baş müəllimi
qerenfilrzayeva40@gmail.com

# ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRDƏ MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *atalar sözü, məsəllər, epik növ, şifahi ədəbiyyat, xalq ədəbiyyatı, mənəvi irs, müdriklik, xalq zəkası*

## Issues of spiritual education in proverbs and parables

**Summary**

The folklore of each nation is an indicator of the history of the formation of its thinking and artistic thinking. If we look at the history of our oral literature, we see that our oldest examples date back to the archaic period of hundreds of thousands of years ago. Our folklore, which originated from mythological thought, has improved over time, formed as a product of new thought in different historical periods, passed down from generation to generation and has survived to the present day.

The folklore of the Azerbaijani people is rich in genre and colorful in terms of its theme and content. Our oral literature, which is the heart of our people, has not lost its freshness, but is also valuable as a source of our national and spiritual values.

Labor songs, counting words, holavars, bayats from lyrical genres; proverbs and parables, legends, myths, epics, etc. from the genres of the epic type. In the womb of genres, the spiritual values that our people have acquired throughout human history are embodied.

Proverbs and parables in the most concise genres of oral folk literature are very valuable materials from the point of view of education. There are hundreds of proverbs for all aspects that form the basis of education (patriotism, love of work, collectivism, struggle, loyalty, respect for elders, passion for science, knowledge, etc.). Many proverbs and parables were created by hard working people. Therefore, they talk more about the hard work and poverty of the people in the past, and express deep hatred and protest against the ruling classes and the exploiters.

***Key words:*** *proverbs, parables, epic type, oral literature, folk literature, spiritual heritage, wisdom, folk wisdom*

Hər bir xalqın folklor yaradıcılığı onun təfəkkürünün, bədii düşüncəsinin formalaşma tarixinin göstəricisidir. Şifahi ədəbiyyatımızın tarixinə nəzər salsaq görərik ki, ən qədim örnəklərimiz yüz min illər bundan öncənin arxaik dövrlərinə aiddir. İlk zamanlar mifoloji düşüncədən qaynaqlanan folklorumuz, zaman keçdikcə təkmilləşmiş, müxtəlif tarixi dövrlərdə yeni düşüncənin məhsulu olaraq formalaşmış, nəsildən-nəslə ötürülərək bü günümüzə qədər gəlib çatmışdır.

Azərbaycan xalqının folklor yaradıcılığı janr etibarilə zəngin, əhatə etdiyi mövzu və məndəricə baxımından isə rəngarəndir. Qərinələr boyu məkanı xalqımızın sinəsi olan, dildən-dilə, ağızdan-ağıza keçsə də, öz təravətini itirməyən şifahi ədəbiyyatımız, eyni zamanda milli-mənəvi dəyərlərimizin məxəzi kimi də qiymətlidir.

Lirik növün nəğmə janrlarından olan əmək nəğmələri, sayaçı sözləri, holavarlar, bayatılar; epik növün janrlarından olan atalar sözü və məsəllər, rəvayətlər, əfsanələr, dastanlar və s. janrların bətnində xalqımızın bəşər tarixi boyunca qazanmış olduğu mənəvi dəyərlər öz təcəssümünü tapmışdır.

Şifahi xalq ədəbiyyatının ən yığcam janrlarında olan atalar sözü və məsəllər təlim-tərbiyə nöqteyi-nəzərindən olduqca qiymətli materiallardır. Tərbiyənin əsasını təşkil edən bütün cəhətlər (vətənpərvərlik, əməyə məhəbbət, kollektivçilik, mübarizlik, sədaqət, böyüklərə hörmət, elmə, biliyə həvəs və s.) üçün yüzlərlə atalar sözləri vardır. Atalar sözləri və məsəllərin çoxu zəhmətkeş

xalq tərəfindən yaradılmışdır. Buna görə də onlarda xalqın keçmişindəki ağır əməyi və yoxsulluğu haqqında daha çox danışılır, hakim siniflərə, istismarçılara qarşı dərin nifrət və etiraz ifadə edilir.

Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim və zəngin bədii nümüunələrindən biri atalar sözləri və məsəllərdir. Atalar sözləri və məsəllər danışıqda çox az işlənən qısa, dərin mənalı və bitkin ifadələrdir. Bunlar xalq müdrikliyinin, xalq zəkasının, xalqın həyat təcrübəsi, dünyabaxışının bədii ifadəsidir.

"Cild-cild kitablar dolusu məna və hikməti özünə sığdıran bu el yaradıcılığı nümunələri bitirən, yetirən, gətirən el dühasının və sağlam xalq fəlsəfəsinin narın zərrələridir. Obrazlı təfəkkürün aforizm şəklində ifadəsi olmaq etibarilə atalar sözləri milli təfəkkürdəki cilalanmış tarixi təcrübəni, dərin və sanballı həyat həqiqətlərini bədii idrak və təxəyyülün süzgəcindən keçirərək yaşadır, onları tükənməz bir enerjiylə dolğun əks etdirir.

Ulu babaların müdriklik dəfinəsinin birər hikmət inciləri və fikir cövlərləri olan atalar sözləri, el məsəlləridir ki, obrazlı təfəkkürün qida mənbəyi kimi zehinlərə təpər verir." (Atalar sözü, 2004; s. 4)

Azərbaycan dilinin aydınlığı, qısa, yığcam şəkildə dərin məna ifadə etmək kimi özünəməxsus xüsusiyyətləri məhz atalar sözlərində daha bariz şəkildə əks olunub. "Başqa janrlar kimi, atalar sözləri də müxtəlif dövrlərdə, müxtəlif şəraitdə yaranmışdır. Buna görə də o, müxtəlif təbəqələrin dünyagörüşünü, həyat təcrübəsini və arzusunu ifadə etmişdir. Məhz bu xüsusiyyətinə görə atalar sözü və məsəllərə ruslar ibrətamiz söz, qanadlı söz, qızıl söz; yunanlar və romalılar hakim fikirlər; italyanlar xalq məktəbi, ispanlar ruhun təbiəti; ingilislər və fransızlar təcrübənin barı və s. adlar vermişlər". (Hikmətli sözlər, 1961; s. 72)

Atalar sözü və məsəllər bir-birinə çox yaxındır. Bunları bir-birindən ayırmaq çox vaxt çətin olur. Lakin onların hər birinin özünəməxsus cəhəti fərqləndirilməsinə kömək olur. Bəzi tədqiqatçılar bu fikirləri onların qrammatik quruluşunda görmüş, bəziləri həcmcə kiçik və böyük olmalarını qeyd etmişlər. "K.D.Uşinski, M.A.Rıbnikova kimi məşhur pedaqoq və metodistlərin, İ.V.Dal, F.J.Buslayev və Q.Sokolov kimi məşhur rus alim və folklorşunasların fikrincə məsəllərdə atalar sözündəki kimi dərin, hikmətli fikirlər vardır, lakin bu hələ bitməmiş, püxtələşməmiş, kamilləşməmişdir. Xalq ifadəsi ilə desək, məsəllər hələ "çiçək" olduğu halda, atalar sözləri meyvədir. Məsələn: "aranda tutdan, dağda quruddan" ifadəsi məsəl, "Aranda tutdan olduq, dağda quruddan" ifadəsi isə atalar sözüdür. Yaxud, "Elə bil tünd sirkədir" ifadəsi məsəl, "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" isə atalar sözüdür". ()

Atalar sözü və məsəllərdən uşaqların əxlaq, əmək, əqli, estetik və s. tərbiyəsi işində geniş istifadə olunur. Belə ki, atalar sözü və məsəllər təsərrüfatın, həyatın, məişətin bütün sahələrini əhatə edir, insanlara mənsub olduqları ailəni, xalqı, dövləti sevməyi, mənəvi cəhətdən zəngin olmağı öyrədir.

Məlumdur ki, əxlaqi və mənəvi tərbiyənin mühüm tərkib hisslərindən biri ***vətənpərvərlikdir.*** İndiki dövrdə uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm vəzifədir. Əsrlər boyu yadellilər tərəfindən parçalanmış, işğal edilmiş torpaqlarımız bu gün də düşmən tapdağı altındadır. İşğal olunmuş ərazilərimiz, şəhid, yaralı və əlillər, milyondan artıq qaçqın və köçgünlərimiz, dağıdılmış dünya əhəmiyyətli tarixi abidələrimiz doğma vətəninə bağlılıq tərbiyəsini həmişəkindən daha artıq zəruri edir. Vətənpərvərlik təkcə Vətəni sevməklə bitmir. Əsl vətənpərvərlik Vətəni yadellilərdən qorumaq, bu yolda savaşmaq və mübarizə aparmaqdır. Atalar sözü və məsəllər uşaqlarda xalqa, torpağa, elinə-obasına məhəbbət hisləri aşılayır, vətənin qədrini bilməyi, düşmənə baş əyməməyi öyrədir: "Vətən viranə də olsa, cənnətdir", "Vətən elin evidir", "Vətənə gəldim, imana gəldim", "Vətənə məhəbbət imandandır", "Vətənin bir qışı qürbətin min baharından yaxşıdır" və s.

Məlum olduğu kimi, hələ XIX əsrin ortalarından başlayaraq ibtidai məktəbin ana dili və qiraət kitablarında atalar sözü və məsəllərə geniş yer verilmişdir. Onu da qeyd etməliyik ki, hətta atalar sözü və məsəllər hələ sistemli şəkildə toplanana qədər çox qədim zamanlardan başlayaraq yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin diqqətini cəlb etmişdir. Nizami, Xaqani, Xətai, Füzuli və başqa sənətkarların əsərlərində bu və ya digər dərəcədə külli miqdarda Azərbaycan atalar sözü və

məsəlləri işlənmişdir. Eləcə də bir sıra klassik yazıçılarımız öz əsərlərinin adlarını atalar sözləri və məsəllərdən götürmüşlər. Məsələn: N.Vəzirovun "Arxadan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük"; Ə.Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini"; R.Əfəndiyevin "Qonşu qonşu olsa, kor qız ərə gedər" və s.

Şifahi xalq ədəbiyyatının ən yığcam janrlarından olan atalar sözü və məsəllər təlim-tərbiyə nöqteyi-nəzərindən olduqca qiymətli materiallardır. Tərbiyənin əsasını təşkil edən bütün cəhətlər (vətənpərvərlik, əməyə məhəbbət, kollektivçilik, mübarizlik, sədaqət, böyüklərə hörmət, elmə, biliyə həvəs və s.) üçün yüzlərlə atalar sözləri vardır. Atalar sözləri və məsəllərin çoxu zəhmətkeş xalq tərəfindən yaradılmışdır. Buna görə də onlarda xalqın keçmişindəki ağır əməyi və yoxsulluğu haqqında daha çox danışılır, hakim siniflərə, istismarçılara qarşı dərin nifrət və etiraz ifadə edilir. Məsələn: "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Bəylə bostan əkənin tağı çiynində bitər".

Şifahi xalq ədəbiyyatının başqa növlərində olduğu kimi, atalar sözləri və məsəllərdə də xalq öz düşmənlərini çox zaman ilan, əjdaha, qurd sifətində göstərmişdir: "İlanın ağına da lənət, qarasına da".

Atalar sözləri və məsəllərdə namərdlik, ikiüzlülük, hiyləgərlik, paxıllıq, tamahkarlıq, xəsislik kimi murdar-pis sifətlər pislənir, mərdlik, doğruçuluq, igidlik təriflənir:

"Tazıya tut deyir, dovşana qaç", "Artıq tamah baş yarar, Daş qayıdar baş yarar", "İgid basdığını kəsməz", "Əmanətə xəyanət yoxdur", "İgid ölər adı qalar, müxənnətin nəyi qalar?" və s. (Atalar sözü, 1981; s. 85)

Qeyd etdiyimiz kimi, atalar sözləri ilə məsəllər bir-birinə oxşayır. Çox zaman bunları bir-birindən seçmək çətin olur. Lakin atalar sözləri ilə məsəllər arasındakı əsas fərq ondan ibarətdir ki, atalar sözləri bitmiş bir fikir ifadə edir, tərbiyəvi-əxlaqi nəticə verən bir cümlə və ya hökm şəklində olur.

Aşıq qoşmaları, bayatılar və lətifələrindən də atalar sözləri sırasına keçmiş misra və cümlələr vardır. Məsələn: XI əsrin yadigarı olan "Kitabi-Dədə Qorqud" dastanlarından da atalar sözlərinin nümunələri vardır:

"Kül təpəcik olmaz"; "Əski pambıq bez olmaz"; "Ölən adam dirilməz"; "Qarı düşmən dost olmaz"; "Çıxan can geri gəlməz"; "Yer qatı, göy iraq". (Atalar sözü, ağlın gözü, 1976; s. 26)

Böyük sənətkarlar öz əsərlərinin çox zaman xalq yaradıcılığından istifadə edərək zənginləşirlər. Atalar sözlərindən yazıçılar fikri yığcam, mənalı ifadə etmək bacarığını öyrənirlər. Nizami Gəncəvi öz əsərlərində dastan və nağıllarımızdan çox istifadə etmişdir. Onun əsərlərində yüzlərcə atalar sözləri vardır. Nizaminin əsərlərində aşağıdakı atalar sözlərinə rast gəlmək olar:

"Özgəsinə quyu qazan özü düşər"; "Əyri oturaq, düz danışaq"; "İsinmədim istisinə, kor oldum tüstüsünə"; "Pişik balasını istədiyindən yeyər"; "Heç kəs öz ayranına turş deməz". (Atalar sözü, 1981; s. 88)

Atalar sözləri müxtəlif yerlərdə, müxtəlif zamanlarda yaranıb ağızlarda dolaşdığı üçün hər kəs onu bir cür söyləyir, danışıq zamanı öz sözünü qüvvətləndirmək üçün ondan məqsədə uyğun şəkildə istifadə edir.

Atalar sözləri və məsəllərin yaranması və inkişafı bu gün də davam etməkdədir. Ümumtəhsil məktəblərinin aşağı siniflərində əmək, zəhmət, böyüklərə, eləcə də şikəstlərə hörmət, düzgünlük, təmizlik, doğruçu olmaq və s. kimi müsbət xüsusiyyətlər öyrədilirsə, yuxarı siniflərdə bu iş daha da mürəkkəbləşir. Burada atalar sözlərinin mənşəyi, bədii xüsusiyyətləri və s. haqqında verilən məlumat canlı misallarla əyaniləşdirilməli və gənclərin özləri də fəal işə cəlb olunmalıdır.

Əgər diqqət etsək görərik ki, bəzi atalar sözü və məsəllərdə xalqın din nümayəndələrinə münasibəti necə aydınlaşır. Xalqı çapıb talayan, şəriət pərdəsi altında iyrənc işlər görən fırıldaqçı mollalar, seyidlər kəsgin tənqid atəşinə tutulur. Məsələn: "Mollanın qarnı beşdir, həmişə biri boşdur", "Aşığınkı haynan, mollanınkı vaynan", "Molla çörəyi, ilan ayağı görünməz", "Mola xana qoşuldu, xalqın evi yıxıldı", "Aşı mollanın, başı mollanın, altıdan da beşi mollanın", "Mola halvanı

gördü, Quranı unutdu", "Molanın evi o vaxt yıxılır ki, iki yerə qonaq çağırırlar" və s. (Atalar sözü, 1981; s.90)

Atalar sözləri və məsəllərdə biz xalqın əməyə, zəhmətə, namusla işləməyə böyük səy və həvəsinin ifadə olunduğunu görürük. Məsələn: "İşləməyən dişləməz", "İş adamın cövhəridir", "Əldən qalan əlli il qalar", "Zəhmət çəkməyən bal yeməz", "Könlü balıq istəyən ayağını suya salar", "El gücü, sel gücü", "Cəfa çəkməsən, səfa görməzsən" və s.( Atalar sözü, 1981; s.87)

Vətənə məhəbbət mövzusu da Azərbaycan atalar sözlərində mühüm yer tutur. Məsələn: "Vətənə gəldim, imana gəldim", "Hər kəsə öz vətəni əzizdir", "Doğma yurd şirin olar", "Vətən viranə olsa, yenə cənnətdir", "Qürbət cənnət olsa da, yenə vətən yaxşıdır" və s.

Atalar sözlərində dostluq, qardaşlıq, mehribanlıq kimi gözəl keyfiyyətlər təbliğ olunur: "Duz çörək, düz çörək", "Bir görən yoldaş, iki görən qardaş", "Tikə ilə dost olan aylarla küsülü olar", "Dil var bal gətirər, dil var bəla", "Dost yaman gündə tanınar", "Köhnə dost düşmən olmaz", "Dost yolunda boran olar, qar olar", "Dost gəlişi bayram olar", "Dost min isə azdır, düşmən bir isə çoxdur" və s. (Atalar sözü, 1981; s.92)

Atalar sözlərinin böyük əksəriyyəti həyatı təcrübəyə əsaslanan əxlaqi-tərbiyəvi nümunələrdir. Bunlar əsrlər boyu pis, yaxud yaxşı işlər görülərkən çıxarılan nəticələrdir. Atalar sözlərində nadanlıq, paxıllıq, xəyanət, ikiüzlülük, qorxaqlıq pislənir, elmə, sənətə, vətənə və anaya məhəbbət, dostluq, humanizm kimi gözəl insani keyfiyyətlər isə təbliğ edilir: "Elm ağılın çırağıdır", "Savadsız adam kor kimidir", "Sənət insanın xəzinəsidir", "Bir ağıllı baş, min baş saxlar", "Uşaq əziz, tərbiyəsi ondan əziz", "Ağıl yaşda deyil, başdadır", "Tək əldən səs çıxmaz", "Yüz ölç, bir biç", "Hər şeyin təzəsi, dostun köhnəsi", "Anlayana qul ol, anlamayana ağa olma", "Acıqlı başqa ağıl olmaz" və s. Bu tipli atalar sözləri üzərində gəncləri düşündürmək, xalqın yaratdığı bu ağıllı sözlərdən düzgün nəticə çıxarmağa onları alışdırmaq lazımdır. Eyni zamanda bilavasitə məktəb həyatı, gənc nəslin tərbiyəvi təlimi ilə əlaqədar olan atalar sözlərinin üzərində aparılan planlı iş gənclərin daha ədəbli, daha nəzakətli, ataya-anaya və ümumiyyətlə, böyüklərə qarşı daha mehriban olmalarına, pis adamlardan uzaq olmalarına, yalan danışmamalarına, daha səylə oxumalarına səbəb olar.

Azərbaycan xalqı həmişə qonaqpərvərliyi, xeyirxahlığı, humanizmi, əməksevərliyi, halallığı ilə seçilmiş, qəhrəmanlığı, vətənpərvərliyi və mübarizə əzmi ilə seçilən ər oğullarının adını dastanlara həkk etmiş, tarixdə silinməz izlər qoymuşdur. Xalqımızın yaratdığı folklor nümunələrində də yuxarıda sadalanan mənəvi keyfiyyətlər öz əksini tapmış, bir növ tərbiyə örnəyi kimi ulu əcdadlarımızdan gələcək nəsillərə miras olaraq qalmışdır.

Ata-babalarımız insanlara, köməyə ehtiyacı olanlara əl tutmağı, yardım etməyi, yetimlərin, kimsəsizlərin qayğısına qalmağı, onların haqqını qorumağı, müdafiə etməyi öyrətmişlər:

"Yetimə öyüd verən çox olar, çörək verən az", "Yetim malı oddan yaman yandırar", "Əl tutanın əlindən tutarlar" və s.

Atalar sözü və məsəllər mənsub olduğu xalqa, elinə-obasına vurğunluq tərbiyə edir, dilini, doğma elinin təbiətini, vətəninin hər qarışını, torpağını-daşını sevməyi tərbiyə edir, uşaqlarda qəhrəmanlıq, xalqa sədaqət kimi keyfiyyətləri formalaşdırır. Bu ibrətamiz sözlər öz milli mənsubiyyəti ilə, tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri ilə qürur duymağı, düşmənə qarşı amansız olmağı, qəhrəmanlığı, mübarizliyi tərbiyə edir:

"İgid odur, atdan düşüb atlana,
İgid odur, hər əzaba qatlana".

Yaxud:

"Sədaqət qəhrəmanın zinətidir" və s.

Folklorumuzun epik üslubunun janrlarından olan atalar sözü və məsəllər xalqımızın mənəvi aləminin təkamülündə böyük əhəmiyyət kəsb etmişdir. Atalar sözü və məsəlləri ilk dəfə (1899-cu ildə) toplu kimi M.Qəmərlinski çap etdirmişdir. Sonralar isə maarifçi pedaqoqlarımız – F.Köçərli, A.O.Çernyayevski, R.Əfəndiyev, A.Şaiq və başqalarının bu sahədəki fəaliyyəti diqqətəlayiqdir.

"Atalar sözü və məsəllərin işlənmə mexanizmi, məzmunundakı məntiqilik onun hamı tərəfindən başa düşülməsində, daha çox təkrar olunmasında və qəbul edilməsində, yaddaşlardan keçərək toplum üçün işlək formaya çevrilməsində təsdiqini tapır. Belə bir müdrik kəlam var: söz dildən doymur, dil sözdən. Bu ifadə atalar sözü və məsəllərin formulunu ifadə edir". (Azərbaycan şifahi xalq ədəbiyyatı, 2014; s. 87)

Diqqət etsək görərik ki, dilimizdə atalar sözü və məsəllər olaraq daşlaşmış ifadələr insanların məsləhət yeri, inancı və az qala etiqadına çevrilmişdir. Məsələn: "Acıqlı başda ağıl olmaz", "Yorğanına bax, ayağını uzat" (Azərbaycan folkloru, 2005; s.160), "Çox yemək insanı az yeməkdən də qoyar!", "Duz-çörək, düz çörək!" (Azərbaycan folkloru, 2005; s.162) və s. ifadələr insanları əməlisalehliyə, nəfsinə hakim olmağa, təkəbbürlü olmaqdansa sadəliyə və mehribanlığa, mənəvi kamilliyə çağıran qiymətli nəsihətlərdir.

Azərbaycan xalqı daim yüksək mənəvi dəyərlərin daşıyıcısı olmuşdur. Əlbəttə ki, bir xalqın ata sözü və məsəli, həmin xalqın genetik xüsusiyyətlərinin bir növ açarıdır. Məhz bu açar sayəsində xalqımızın hansı mənəvi keyfiyyətlərə malik olmasını müəyyənləşdirmək o qədər də çətin məsələ deyildir. Əgər atalar sözü və məsəllərimizin məzmununa, mövzusuna və ideyasına diqqət etsək görərik ki, bu təsnifatda ən ali insani xüsusiyyətlərdən olan düzlük, doğruçuluq ("Doğru yolla gedən yorulmaz", "Yalan ayaq tutar, yeriməz!", "Yalan üz qaraldar" və s.) (Azərbaycan folkloru, 2005; s.156); sədaqət, dostluq, məhəbbət, vəfadarlıq ("Dost arası pak gərək!", "Tikə ilə dost olanlar, illər ilə küsülü qalar" və s.) (Azərbaycan folkloru, 2005; s.157); insanda yaxşılıq, səxavətlilik, ədalət, mərdlik ("Yaxşılıq et at dəryaya, balıq bilməsə, xaliq bilər", "Pisliyi torpağa əkdilər, göyərmədi!", "Qanı qan ilə yumazlar", "Mərd əli kasad olmaz" və s.) (Azərbaycan folkloru, 2005; s.158); əməyə məhəbbət ("Əmək xoşbəxtliyin açarıdır", "Əməyə hörmət et ki, hörmətini artırsın" və s.) (Atalar sözü, 1985; s.332); Vətənə məhəbbət ("Vətənə gəldim, imana gəldim", "Qürbət eldən Vətən olmaz!", "Qəribi vurmuşlar, vay, Vətən demiş" və s.) (Azərbaycan folkloru, 2005; s.154); etibarlılıq, müdriklik ("Ağıl yaşda deyil, başdadır", "Bilik ağlın aynasıdır", "Ağıllı düşmən nadan dostdan yaxşıdır" və s.) (Azərbaycan folkloru, 2005; s.155); insaf, qonaqpərvərlik ("İnsaf dinin yarısıdır", "Varını verən utanmaz", "Qonaq süfrənin yaraşığıdır", "Qənaət tükənməz dövlətdir") (Atalar sözü, 1985; s.194) və digər yüksək mənəvi keyfiyyətlərin aşılanması üçün xalqımızın tükənməz söz xəzinəsi olan ata sözümüz geniş məna tutumuna və təsir dairəsinə malikdir.

Şəxsiyyətin formalaşmasında əmək fəaliyyətinin əsas göstərici olduğu haqqında dəyərli fikirlər böyük mütəfəkkirlərimizin yaradıcılığında da öz əksini tapır. Lakin bu mövzuda ən gözəl nümunələrə yenə də şifahi xalq ədəbiyyatında rast gəlirik.

Əməyi daim yüksək qiymətləndirən ata-babalarımız söyləmişlər ki, halal əmək insanlarda ən yüksək əxlaqi keyfiyyətləri formalaşdırır, tüfeyli həyat sürmək isə mənfi əxlaqi sifətlər yaradır. İnsan əməyi sevməli, onun faydalı və zəruri olduğunu başa düşməlidir. Əmək insanın həm fiziki, həm də mənəvi inkişafı üçün əhəmiyyətlidir. Uşaqları lap erkən yaşdan əməyə alışdırmaq, onlara asan qazanılan malın bərəkətinin olmadığını, bunun günah oldudüğunu izah etmək lazımdır.

Mövzu muxtəlifliyi ilə yanaşı bitmiş fikir, ümumiləşdirmə və nəticə atalar sözlərinə xas olan cəhətlərdir. Atalar sözləri xalqın həyatda sınanmış, müdrik və nəsihətli fikirlərindən ibarət olur və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Əsas xüsusiyyəti həcmcə kiçikliyi, lakin mənaca hikmətli və nəsihətli olmasıdır. Atalar sözləri bitkin fikir ifadə edir, həm həqiqi, həm də məcazi mənada işlənir.

"Həyatın bütün sahələrini əhatə etmək və sınaqdan keçirmək sayəsində əldə edilən qənaətləri bədii-fəlsəfi ümumiləşdirmələr yolu ilə ifadə edən yığcam əxlaqi-tərbiyəvi əsər" (Poetika: izahlı sözlük, 2014; s. 20) olan ata sözü və məsəllər xalqımızın həyata baxışını, təcrübədə əldə etdiyi nəticələrin həyat dərsi olaraq gələcək nəsillərə çatdırılmasında, həmçinin mənəvi tərbiyənin yüksəlişində müstəsna əhəmiyyətə malikdir.

Hazırkı cəmiyyətimizdə gənclərin avropalılaşmaq meyli, Qərb mədəniyyətinə olan maraqları haqlı narahatlıq doğurur. Əlbəttə, yenilik lazımdır. Ancaq bu yenilik mənəviyyatımızın sarsılmasına, yad əxlaq normalarının milli əxlaq normalarımızı sıxışdırmasına gətirib

çıxarmamalıdır. Unutmamalıyıq ki, biz Azərbaycanlıyıq və mənsub olduğumuz xalqın mədəni tarixi nəinki Avropanı, hətta bütün dünyanı tərbiyələndirəcək qədər zəngin və misilsizdir.

Nəticə olaraq onu deyə bilrik ki, Azərbaycan folkloru və onun hər bir örnəyi ən ali mənəviyyat dərsliyidir. Bu dərsliyi qorumaq, mütaliə etmək, inkişaf etdirmək isə hər bir Azərbaycanlının müqəddəs vəzifəsidir. Yüksək əxlaqi-mənəvi dəyərlərə malik olan bir xalqın min illər boyu yaradıb təkmilləşdirdiyi və təmənnasız olaraq istifadəyə verdiyi bu müqəddəs əmanət, şübhəsiz, xalqımız var olduqca yaşayacaq və inkişaf edəcəkdir.

## References

1. Proverbs. Elm Publishing House. Baku, 1981.
2. Proverbs, the eye of the mind. "Ushaqganjnashr" publishing house. Baku, 1976.
3. Wise words, "Ushaqganjnashr" publishing house. Baku, 1961.
4. Azerbaijani folklore. Baku. East-West Publishing House, 2005, 339 pages.
5. Proverbs. Baku. Yazichi Publishing House, 1985, 690 pages.
6. Ramil Aliyev. Azerbaijan oral folk literature. Baku, Chirag Publishing House, 2014, 280 pages
7. Time Soldier. Poetics: an explanatory dictionary. Baku. Elm Publishing House, 2014. 262 pages.

Göndərilib: 21.06.2021 Qəbul edilib: 25.06.2021